

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 223 (21.884)

24 noyabr 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də NATO-nun baş katibi Yens Stoltenberqin dəvəti ilə Alyansın mənzil-qərargahına gəlib.

Rəsmi foto çəkdirildikdən sonra Prezident İlham Əliyevin və NATO-nun baş katibi Yens Stoltenberqin görüşü olub.

Həmin gün Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və NATO-nun baş katibi Yens Stoltenberq mətbuata bəyanatla çıxış ediblər.

Dövlətimizin başçısı noyabrın 23-də Brüsseldə NATO-nun Şimali Atlantika Şurasının iclasında iştirak edib.

Şimali Atlantika Şurasının iclasında əvvəlcə NATO-nun baş katibi Yens Stoltenberq çıxış edib. Sonra o, sözü Azərbaycan Prezidenti İlham Əliyevə verib.

Dövlətimizin başçısı Azərbaycan ilə NATO arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd edib. Ölkəmizin NATO-nun müxtəlif missiya və əməliyyatlarında fəal iştirak etdiyini vurğulayan Prezident İlham Əliyev NATO-nun, öz növbəsində, Azərbaycanda ərazilərin minalardan təmizlənməsi işində fəal iştirak etdiyini bildirib.




## Ekoloji təmiz və alternativ enerji mənbələrindən istifadəyə diqqət öz bəhrəsini verir

***Hər il soyuq qış ayları yaxınlaşdıqca yaxın keçmişdə enerji qıtlığından yaranan çətinliklər yada düşür, enerji istifadəsinə olan diqqət artır. Elə bütün dünyada da ənənəvi enerji ehtiyatlarının getdikcə tükənməsi ilə bərabər, insanların elektrik enerjisinə olan tələbatlarının artması müşahidə olunmaqdadır. Bu baxımdan inkişaf etmiş ölkələrdə enerji tələbatlarının ödənilməsini alternativ və bərpa olunan enerji mənbələri hesabına həll olunaraq bu sahədə mühüm nəticələr əldə olunub. Bu məsələyə diqqət, eyni zamanda ekoloji tarazlığın, insan sağlamlığının qorunması məqsədləri ilə izah olunur.***



Ölkəmiz karbohidrogen ehtiyatları ilə zəngin olsa da, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə bizim üçün də prioritet məsələlərdəndir. Xüsusən Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətində olması burada ekoloji təmiz və alternativ enerji mənbələrindən istifadənin əhəmiyyətini ön plana çıxarır. Qısa müddət ərzində həyata keçirilən tədbirlər öz bəhrəsini verib və Naxçıvan enerji idxal edən regiondan, ixrac edən regiona çevrilib.

Dünyada alternativ enerjiyə keçidin mühüm səbəbləri vardır. Belə ki, Yer kürəsində enerjiyə olan tələb hər il orta hesabla 4-5 faiz artmaqdadır. Bununla bərabər, enerji sərfinin belə bir sürətlə artması ilə paralel olaraq, ənənəvi enerji daşıyıcılarının həcmi də sürətlə azalmaqdadır. Mütəxəssislərin hesablamalarına görə, dünyada neftin 30-40 illik, daş kömürün 80-100 illik, təbii qazın isə 100-120 illik ehtiyatı qalmışdır. Bundan əlavə, belə enerji mənbələrinin istifadə olunması ilə ətraf mühitin korlanması və qlobal istiləşmə daha çox problemlər yaradır. Bu isə, öz növbəsində, yeni alternativ enerji mənbələri üzərində işlərin sürətlənməsi və bərpa olunan enerji mənbələrindən istifadə məsələlərini ön plana çıxarır.

Naxçıvanda ekoloji təmiz və alternativ enerji ehtiyatları kimi hidroenerji, külək və Günəş mənbəli ehtiyatlar vardır. Hazırda muxtar respublikamızın elektrik enerjisinə olan tələbatının böyük bir hissəsi hidroenerji və Günəş Elektrik stansiyalarından ödənilir. Belə ki, bu ilin on ayı ərzində muxtar respublikanın elektrik şəbəkələrinə ötürülmüş 397 milyon 765 min 755 kilovat-saat elektrik enerjisinin 181 milyon 953 min 400 kilovat-saatı, başqa sözlə, 46 faizə yaxını məhz bu mənbələrin payına düşür. Naxçıvanda fəaliyyət göstərən Günəş Elektrik Stansiyası isə son illərdə Cənubi Qafqaz regionunda həyata keçirilmiş ən uğurlu alternativ enerji layihəsidir. Belə ki, bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikasında istehsal olunan elektrik enerjisinin 27 milyon 519 min kilovat-saatı Naxçıvan Günəş Elektrik Stansiyasında istehsal edilib.

Hesablamalara görə, Günəşin bir ildə Yer kürəsinə verdiyi işıq enerjisinin yüzdə biri bəşəriyyətin bir neçə yüz ildə istifadə etdiyi enerjinin həcminə bərabərdir. Bundan başqa, Günəş enerjisi istifadə baxımından ekoloji cəhətdən ən təmizidir. Quraşdırılan bahalı avadanlıqlara baxmayaraq, onların az istismar xərcləri, ekoloji cəhətdən təmizliyi, bərpa olunan və ümumiyyətlə, tükənməyən olması Günəş enerjisinin istifadə olunmasının üstün cəhətlərindəndir. Belə ki, günəş panelləri uzun illər ərzində təmirə ehtiyacı olmadan istifadə oluna bilər. Məhz buna görə də muxtar respublikada istismarda olan 20 meqavat gücündə Günəş Elektrik Stansiyasının layihə gücü daha 2 meqavat artırılaraq istismara verilmişdir. Naxçıvanda günəşli günlərin sayının çox olmasını və su ehtiyatlarının da qeyri-stabil olduğunu nəzərə alsaq, onda Günəş Elektrik Stansiyasının iqtisadi dəyəri və enerji təhlükəsizliyindəki əhəmiyyəti bir daha aydın olur.

Ekoloji təmiz enerji mənbələrindən istifadə muxtar respublikamızın təbii sərvətlərinin iqtisadi dövriyyəyə cəlb olunmasının ən yaxşı yollarından biridir. Naxçıvanın hidroenerji potensialı ilə bərabər günəşli və küləkli günlərin sayı da bu potensialı artırır. Vaxtilə blokada vəziyyətinə salınmaqla əsas enerji və kommunikasiya əlaqələri kəsilmiş Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyi istiqamətində dövlətimizin həyata keçirdiyi məqsədyönlü işlər nəticəsində artıq regionda etibarlı enerji infrastrukturu yaradılmışdır. Nəticədə, yollarımız daha çıraqban, mənzillərimiz daha da işıqlı və istidir.

✍ **Əli CABBAROV**

## Tələbələr Ədliyyə Nazirliyində olublar

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq, eləcə də Dövlət və bələdiyyə idarəetməsi ixtisasları Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin hamiliyinə verilib.*

Noyabrın 22-23-də adıçəkilən ixtisaslar üzrə I kursda təhsil alan tələbələr nazirliyin aparatında və tabe qurumlarında təcrübə keçiblər.

İlk olaraq gələcəyin hüquqşünasları Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində dövlətimizin cəza-icra siyasətinin həyata keçirilməsi, məhkumların hüquq və vəzifələrinin təmin edilməsi üçün peşə kurslarının təşkili haqqında ətraflı məlumat alıblar. Burada onları maraqlandıran suallara aydınlıq gətirilib.

Həmin gün Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr Məhkəmə Ekspertizası Mərkəzində olublar. Burada onlar mərkəzdə keçirilən ekspertiza növləri haqqında ətraflı məlumat alaraq, müxtəlif ekspertizaların aparıldığı laboratoriyalarda yaradılan şərait və bu laboratoriyaların iş prinsipləri ilə tanış olublar. Növbəti gün isə tələbələr nazirliyin aparatında bir iş günü ərzində görülən işlər barədə məlumat əldə ediblər.

İkigünlük təcrübə müddətində universitetin Dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə təhsil alan tələbələri nazirliyin Bələdiyyələrlə İş Mərkəzinə gələrək burada iş prosesini izləyiblər.

Qeyd edək ki, təcrübə müddətində hər iki ixtisas üzrə təhsil alan tələbələr nazirliyin bütün şöbə və bölmələrində olub, günlük iş prosesində iştirak ediblər.

Təcrübi fəaliyyətdən sonra Ədliyyə Nazirliyində tələbələrlə görüş keçirilib, onları maraqlandıran suallar cavablandırılıb.

✍ **Səbuhi HÜSEYNOV**

***Son illər muxtar respublikamızda 60-dan çox müxtəlif təyinatlı tarix-memarlıq abidəsi, o cümlədən türbələr, məscidlər, xanəgahlar, hamamlar, buzxanalar orijinallığı saxlanmaqla yüksək səviyyədə bərpa olunub.***

## Yengicə hamamında bərpa işləri davam edir



Şərur rayonu ərazisində mövcud olan tarixi-memarlıq abidələrinin bərpasına da xüsusi diqqət yetirilir. Məqsədyönlü və sistemli şəkildə aparılan bu işlər rayonun Yengicə kəndindəki qədim hamamı da əhatə edib.

Hazırda Yengicə hamamında bərpa işləri aparılır. Hamamın fasad hissəsində üzləmə işləri yekunlaşmaq üzrədir. Burada qırmızı kərpicdən istifadə edilir. Memar və ustalar hamamın ilkin quruluşunun qorunub saxlanılması üçün səy göstərir, milli memarlıq ənənələri əsasında bərpa işlərini davam etdirirlər. Dam örtüyü bərkidildikdən sonra isə günbəzlərin üzlənməsi nəzərdə tutulub. Hamamın daxilində də bərpa işləri aparılır. Bərpa işləri başa çatdıqdan sonra ətraf abadlaşdırılacaq, yenidən həyata vəsiqə alan tarixi abidə kəndin mənzərəsinə yeni çalarlar gətirəcəkdir.

Məlumat üçün bildirək ki, haqqında bəhs olunan hamam kəndin mərkəzində böyük bir ərazini tutan Çarşıbazarın başlanğıcında inşa olunub. Şərq memarlığı üslubunda inşa edilmiş bu hamam yerli əhalinin fikrincə, XVIII əsrdə əslən Şahtaxtı kəndindən olan Tovuz xanım adlı qadın tərəfindən tikdirilib. Yengicə hamamı müəyyən dağıntılara uğrasa da, zəmanəmizədək qismən salamat vəziyyətdə gəlib çatıb. Hamamın ümumi sahəsi 650, içərisinin sahəsi 545 kvadratmetrdir. Bina 19x19x5 santimetr ölçüdə bişmiş kərpiclə əhəng məhlulu istifadə olunmaqla tikilib. Zalları örtən sferik günbəzlər, girişdəki sadə formalı baştağ və digər xidməti otaqlar qismən dağıntıya məruz qalsalar da, hamamın daxili planı yaxşı vəziyyətdədir. Bu da hamamın ilkin quruluşunu hərtərəfli bərpa etməyə imkan verib.

Etnoqrafik materiallara əsaslanaraq demək olar ki, XX əsrin ortalarına qədər hamamdan Yengicə kəndi ilə birlikdə ətraf kəndlərin də əhalisi istifadə edib.

Ötən yüzilliyin sonlarından etibarən Yengicə hamamı fəaliyyətini dayandırmış, tədricən unudulmuş və dağıntılara məruz qalmışdı. Bu səbəbdən də onun bərpa və təmirinə ehtiyac yaranmışdı.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Yaşayış binası inşa olunur

*Son illərdə Sədərək rayonunda da inşaat sektoru sahəsində yaddaqalan layihələr reallaşdırılıb. Burada aparılan genişmiqyaslı abadlıq-quruculuq tədbirləri müxtəlif sahələri əhatə edir. Yaşayış məntəqələrində inşa olunan müasir obyektlər sərhəd bölgəsinin sakinlərinin rahat yaşaması və işləməsi məqsədi daşıyır.*



Rayonun Heydərabad qəsəbəsində hər il quruculuq tədbirləri həyata keçirilir, bu tədbirlər qəsəbənin simasına yeni çalarlar qatır.

Qəsəbədə yaşayış binalarının da sayı ilbəil artmaqdadır. Bu tədbirlərin davamı olaraq cari ilin əvvəllərindən Heydərabad qəsəbəsində zirzəmi ilə birlikdə 7 mərtəbəli, 48 mənzilli yaşayış binasının tikintisinə başlanılıb. İnşaat işlərini "ARTAY" şirkətinin kollektivi həyata keçirir. Artıq binanın dördüncü mərtəbəsində ara hörgülər başa çatdırılıb, dəmir-beton sütunlar üçün qəlib qurulmasına başlanılıb. Layihə əsasında burada 2 və 3 otaqlı mənzillər olacaq. Hazırda obyektdə kifayət qədər işçi qüvvəsi çalışır, tikintidə, əsasən, yerli inşaat materiallarından istifadə edilir, keyfiyyət amilinə xüsusi diqqət yetirilir. İnşaatçılar geyim formaları, təhlükəsizlik ləvazimatları ilə təmin olunublar. Yeni binanın inşası gənc ailələrin mənzil problemlərinin həllinə öz töhfəsini verəcəkdir.

✍ **Nail ƏSGƏROV**

# Güclü brend yaratmağın yolu rəqabətqabiliyyətli məhsul istehsalından keçir

## Naxçıvanlı sahibkarların bu sahədə geniş imkanları var

***Ümummilli lider Heydər Əliyev sahibkarlığın bazar iqtisadiyyatı şəraitində iqtisadi tərəqqiyə verdiyi töhfəni böyük uzaqgörənliklə dəyərləndirmiş, məhz dahi şəxsiyyətin rəhbərliyi ilə ölkəmizdə sistemli tədbirlər həyata keçirilmiş, makroiqtisadi sabitliyə nail olunması üçün özəl sektorun formalaşması istiqamətində hüquqi baza yaradılmışdır. Bunun nəticəsidir ki, ölkəmizdə, həmçinin muxtar respublikamızda sahibkarlıq mühiti ildən-ilə genişlənir və inkişaf edir.***

Təbiidir ki, sahibkarlıq fəaliyyəti zaman-zaman yeni bazar tələbləri ilə qarşı-qarşıya qalır. Bu tələblərin düzgün dəyərləndirilməməsi gələcəkdə iqtisadi çoxşaxəliliyin təmin edilməsinə də əngəl törədə bilər. Bu mənada, dinamizm, təşəbbüskarlıq, yenilik sahibkarlıq fəaliyyətində önəmli məsələlərdən hesab edilir. Biznesdə inkişafın bir çox uğurlu istiqamətləri vardır. Keyfiyyət, rəqabət, münasib qiymət, etibarlılıq və sair uğurlu biznesin əsas şərtləridir desək, yanılmarıq. Çünki hər bir sahibkar istehlakçının etibarını qazanmağa çalışır ki, daha böyük satış bazarı əldə etsin. Bunu isə sağlam rəqabət, keyfiyyətli məhsul, münasib qiymətləndirmə aparmaqla əldə etmək mümkündür. Müasir biznesdə uğurlu mübarizə yollarından biri də brendinq siyasətidir, daha doğrusu bu, siyasətin düzgün aparılmasıdır. Çünki istehlakçı düşüncəsində hər zaman müsbət emosiya yaratmaq asan deyil.

Oxucularımız üçün asan anlaşılsın deyə, bunu belə ifadə edək: Brend məhsul o məhsuldur ki, sahibinə, sadəcə, pul qazandırmır, həm də istehlakçıya "dəyər", "status" satır. Məsələn, "Ankor" dedikdə hər birimizin gözləri önündə Yeni Zelandiya, təbiət mənzərələri, fermer həyatı, "Mercedes" dedikdə keyfiyyətli və rahat avtomobil, "Apple" dedikdə yüksək texnologiyaya malik elektronika məhsulları və sair canlanır. Bu məhsulların heç biri Azərbaycanda istehsal olunmayıb. Ancaq digər ölkələrin vətəndaşları kimi, biz də bu məhsulların keyfiyyətinə böyük dəyər veririk. Ona görə ki, bunlar brend məhsullardır və o şirkətlər inkişaf etdikcə, istehsal etdikləri məhsullar da düşüncəmizdə elə qalacaq. Buna görə də brendin izahında ən əsas faktor istehlakçı düşüncəsində, yaxşı mənada, özünə yer tutmaqdır. Yuxarıda adıçəkilən, eləcə də dünyada tanınmış digər məhsullar birdən-birə brendə çevrilməyib. Bu məhsulların istehsalında, tanıdılmasında, istehlakçıya ən yüksək səviyyədə çatdırılmasında işə hədsiz sevgi, böyük zəhmət və güclü təbliğat əsas rol oynayıb. İstər avtomobil, istər məişət əşyası və ya qida növü – brend məhsullar həmişə digər məhsullardan bir neçə pillə yüksəkdə dayanır. Hətta onların keyfiyyəti bərabər səviyyəli olsa belə. Dünyada brendlərin yaranma tarixi müxtəlif olsa da, onları birləşdirən bir ortaq nöqtə var. Bu, istehsalçının məhsula əlavə etdiyi dəyər və bu dəyərin müştəri üçün kəsb etdiyi mənadır. Məsələnin digər tərəfi ondan ibarətdir ki, brend məhsullar aid olduğu ölkəyə təkcə maddi xeyir vermir, həm də onun tanıdılmasına, təbliğinə, nüfuz qazanmasına şərait yaradır.




Uzağa getməyək, təkcə "Samsung" brendinin məhsulları bu gün avropalı ailələrin məişətinə, sözün əsl mənasında, nəzarət edir. Və yaxud, Rusiyanın məşhur "Maşa və ayı" brendi hər il sahibinə milyardlarla dollar gəlir gətirir. Son illərdə "Rusiyanın ən yaxşı ixrac məhsulu" adını alan bu cizgi filminin təkcə 2012-ci ildə istehsalından və xidmətlərindən qazancı 15 milyard dollardan çox olmuşdur. Rusiyada 2009-cu ildən, qonşu Türkiyə Respublikasında isə 2016-cı ildən yayımlanan həmin cizgi filmi hazırda dünyanın 120-dən çox ölkəsində yüz milyonlarla ailəyə "icazəsiz" daxil olaraq 5-10 yaşlı uşaqların qonağı olur. Bəs necə olur ki, dəcəl qız uşağı və ayı sahibinə (ölkəsinə) bu qədər pul qazandırır? Əlbəttə, brend məhsul olmasına görə. Ancaq bu məhsulun məqsədi, sadəcə, pul qazanmaqdırmı? Əlbəttə, xeyr. Baxanlar bilir, burada rus musiqilərindən tutmuş milli yeməklərinə, buz xokkeyinə qədər rus məişətinə, həyat tərzinə aid bir çox səhnələr var. Elə brendin gücü də klassik rus mədəniyyətini "dəcəllik" və "mehribançılıq" identifikasiyası altında təbliğ etməyindədir.




Bu misalları sadalamaqda məqsədimiz odur ki, yerli brend məhsullarımızın yaradılması və təbliği hazırda qarşımızda dayanan ən vacib məsələdir. Son dövrlərdə ölkə başçısının tapşırığı ilə "Made in Azerbaijan" brendinin yaradılması ilə bağlı atılan addımlar, xüsusilə xarici ölkələrə ixrac missiyalarının təşkil edilməsi, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinin inkişaf etdirilməsi bu istiqamətdə həyata keçirilən mühüm tədbirlərdəndir. Bu, o deməkdir ki, ölkəmizin iqtisadi gücünü artırmaq üçün güclü brendlərə sahiblənməyimiz lazımdır. Artıq muxtar respublikamızda da bu istiqamətdə tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. Ötən il muxtar respublikamızda "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması bu işin başlanğıcı kimi dəyərləndirilə bilər. Cəmiyyətin yaradılmasında əsas məqsəd muxtar respublikada istehsal olunan məhsulların daxili bazarda dövriyyəsini təmin etməkdən ibarətdir. Müəssisənin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"...Bu gün muxtar respublikada 150-dən çox qapalı və dövlət tərəfindən təminatı həyata keçirilən müəssisələr vardır. Bu müəssisələrin ərzaq məhsulları ilə təchizatının əsas hissəsi idxal hesabına həyata keçirilirdi. Lakin "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılmasından sonra qapalı müəssisələrin təminatının idxal hesabına ödənilməsinin qarşısı alınmış, bu müəssisələrin tələbatının tamamilə yerli məhsullar hesabına ödənilməsi təmin edilmişdir. Muxtar respublikada həyata keçirilən bu tədbirlər daxili bazarda yerli istehsalın həcminin artmasına, yeni iş yerlərinin yaradılmasına, dövlət vəsaitlərinin ölkə daxilində qalmasına və səmərəli istifadəsinə imkan verdi. Dövlət vəsaitinin ölkə daxilində dövr etməsi isə daxili bazarın qorunmasına və insanların rifahının yaxşılaşdırılmasına xidmət edir. Daxili bazarın və dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatların ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi, muxtar respublikada istehsal olunan məhsulların Naxçıvan brendi ilə xarici bazarlara çıxarılması və tanıdılması müəssisənin qarşısında duran növbəti vəzifələrdir".***

Bu gün Naxçıvanın dünya bazarlarına çıxacaq yüksək rəqabət qabiliyyəti ilə seçilən məhsulları var. Ordubadın özünəməxsus meyvələrindən hazırlanmış mürəbbələri, analoqu olmayan Naxçıvan göyçəsi, dağların köksündən yüz illərdir, axan "Sirab"ı, "Badamlı"sı, yaxud müasir dünyada dəniz duzunun istehsalında tətbiq olunan texnoloji yenilik və əlavələrdən fərqli olaraq təbii Duzdağı özü qədər böyük bir brendə iddialı deyilmi?

Bu məhsulların sırasını yenə artırmaq olar. Demək istədiyimiz odur ki, yerli sahibkarlarımızın brend məhsullar yaratmaq üçün geniş imkanları var. Unutmamalıyıq ki, brend məhsulun dəyərini, satış dövriyyəsini artırır, əsas bazara sahiblik edir, bazara yeni çıxmış rəqiblərə "əngəl yaradır", məhsulun ömürlük satış agentidir və nəhayət, aid olduğu ölkənin keyfiyyət rəmzinə çevrilməklə dünya bazarında müəyyən istehlakçı kütləsinə nəzarət edir.




Marketoloqların brendlə bağlı yaxşı bir sözü var: brend istehlakçıya verilən vəd və bu vədin daim yerinə yetirilməsidir. Çalışaq, yeni bazarlarda istehlakçılara yeni vədlər verək.

**Səbuhi HƏSƏNOV**

---

*İstehsal müəssisələri*

# Balıqçılıq təsərrüfatı günün tələbləri səviyyəsində fəaliyyət göstərir

***Son illərdə muxtar respublikada balıq və digər su resurslarının artırılması, bərpası, mühafizəsinə xüsusi diqqət yetirilir. Hazırda Naxçıvanda balıq və digər su bioresursları, o cümlədən nadir və nəsli kəsilməkdə olan növlər ərzaq məhsulu əldə edilməsi məqsədilə balıqçılıq su obyektlərində artırılır, süni və təbii göllərdə dünya təcrübəsinə əsaslanmaqla balıq yetişdirilir. Əvvəllər "akvakultura" adlanan göl balıqçılığı diqqətdən kənarda qalmışdısa, indi bu balıqçılıq növünə də xüsusi diqqət yetirilir, balıq yetişdirən və balıqçılıq məhsulları istehsal edən müəssisələr formalaşır. Artıq muxtar respublikada 15 balıqçılıq təsərrüfatı fəaliyyət göstərir. Görülən işlər dövlətimizin bu sahəyə diqqət və qayğısından xəbər verir.***

Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında balıqçılıq sahəsinin inkişaf etdirilməsi də xüsusi əhəmiyyət kəsb edir. Məhz bunun nəticəsidir ki, 2 il bundan öncə – sentyabr ayının 10-da muxtar respublika rəhbərinin iştirakı ilə Naxçıvan "Balıqçılıq Təsərrüfatı" üçün yeni kompleks istifadəyə verilib, bununla da, əhalinin keyfiyyətli balıq məhsulları ilə təminatı sahəsində əhəmiyyətli dəyişikliklər olub.

Oktyabr ayından etibarən balıq ovu mövsümünün başlanması ilə balıqçılar Araz çayında ova çıxırlar.



Bunun nəticəsidir ki, indi mağazalarda sərfəli qiymətə müxtəlif növ təzə balıq almaq mümkündür. Bu sahədə görülən işlərlə tanış olmaq üçün Naxçıvan "Balıqçılıq Təsərrüfatı"na yollandıq.

Naxçıvan şəhərində Araz çayına yaxın bir ərazidə yerləşən kompleksdə öyrəndik ki, sovetlər dövründə yarıtmaz binalarda, köhnə avtomobillərlə və kiçik imkanlarla fəaliyyət göstərən kollektiv üçün müasir tələblər səviyyəsində şərait yaradılıb, balıqçılığın inkişaf etdirilməsi məqsədilə geniş imkanlar açılıb. Hazırda kompleksdə qapalı hovuzlarda 100-110 min arasında müxtəlif növ balıq yetişdirilir. Hovuzlara daimi su giriş-çıxışı təmin edilib, bunun üçün müasir avadanlıqlar quraşdırılıb. Kürülər xüsusi qablarda mayalandıqdan bir müddət sonra kiçik balıqlar hovuzlara tökülür, gündə bir neçə dəfə keyfiyyətli yemlə qidalandırılır. Çətin proses olsa da, bu işə cavabdeh olan Novruz Məhərrəmov və Məhərrəm Səfərov bildirdilər ki, yaradılan şərait bütün çətinliklərin öhdəsindən gəlməyə imkan verir. Balıqlar müəyyən ölçüyə və çəkiyə çatdıqdan sonra Heydər Əliyev Su Anbarı, Araz, Arpaçay və Uzunoba Su anbarları kimi iri su hövzələrinə buraxılacaq, adıçəkilən su mənbələrinin müxtəlif balıq növləri ilə zənginləşdirilməsi təmin ediləcəkdir.

Hazırda şəhərdə keçirilən kənd təsərrüfatı yarmarkalarında adıçəkilən təsərrüfat fəal iştirak edir, işçilər əhalinin təzə balıq məhsullarına olan tələbatını təmin etmək üçün səy göstərirlər. Su hövzələrindən tutulan çəki, suf, xəşəm, naxa, qalınalın, dabanbalığı kimi balıq növlərinin satışı üçün gündəlik ovlanan balıq Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin nəzdində fəaliyyət göstərən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində laboratoriya analizindən keçdikdən sonra satışa göndərilir. Təzə balığın satış məntəqələrinə çatdırılması üçün "Hyundai" markalı avtomobil və 2 ton tutumlu soyuducu kamera vardır. Təsərrüfatda yeni ov mövsümündə, sentyabr-oktyabr ayları ərzində 61 min 750 manatlıq balıq ovlanıb.

Qeyd edək ki, Naxçıvan Balıqçılıq Təsərrüfatında 35 nəfər işlə təmin olunub. Balıq ovu mövsümündə iqlim şəraitinə görə işçilər lazımi avadanlıq və xüsusi geyimlərlə təmin olunur, onların təhlükəsizliyi diqqət mərkəzində saxlanılır. Balıqçılardan Zaur Novruzov, Kazım Gözəlov, Nurəddin Məmmədov, İlham Abbasov və başqaları işlərində xüsusilə fərqlənirlər. Onlarla söhbət zamanı bildirdilər ki, balıqçılıq çətin peşə olsa da, yaradılan imkanlar bütün bu çətinliklərin öhdəsindən gəlməyə imkan verir. İstənilən hava şəraitində işləmək üçün vasitələrimiz vardır. Ailəmizin güngüzəranı da buradan çıxır. Çox minnətdarıq ki, bizim üçün bu cür şərait yaradılıb. Bir də ona diqqət yetiririk ki, bol qazanc üçün kiçik və lazımi çəkiyə uyğun gəlməyən balıqları ovlamayaq. Axı bu sərvət təkcə bu gün deyil, gələcəkdə də insanların karına gələcək.

Sonda onu da qeyd edək ki, balığın çox vacib bir qida olmasının səbəbi onun özündə həm insan orqanizmi üçün zəruri olan maddələri ehtiva etməsi, həm də onu müxtəlif xəstəlik risklərindən mümkün qədər uzaqlaşdıracaq xüsusiyyətə malik olmasıdır. Bu canlının ümumi şəkildə göstərdiyimiz faydalı cəhətlərinə hər ötən gün yeniləri əlavə olunur. Balığın faydalarını ortaya çıxarmaq alimlərin inkişaf etmiş texnoloji imkanlarla təchiz olunmuş tədqiqat mərkəzlərindən istifadə etməsi ilə mümkün olub. Bu cür dəyərli qida mənbəyinə "Qurani-Kərim"də işarə edilməsi və "Kəhf" surəsində yorğunluğu aradan qaldıran bir qida kimi təqdim olunması da, əlbəttə, çox hikmətlidir. Muxtar respublikanın su hövzələri ilbeil bu dəyərli canlılarla zənginləşdirilir. Bu da onu deməyə əsas verir ki, süfrəmizi həmin ləziz nemətlə bəzəməyə hələ uzun illər imkanımız olacaq.

**Səbuhi HÜSEYNOV**

*Jurnalistin qeydləri*

# 5 yaşlı Bəkirin sevinci

***“Hörmətli Sədr! Kəndimizə gəlişiniz biz uşaqları sevindirir. Çünki bizim üçün müasir məktəb binası istifadəyə verilir. Qürur duyuruq ki, gələcəkdə bu məktəbdə təhsil alacağıq. Söz veririk ki, müstəqil Azərbaycan üçün layiqli övladlar olacağıq. Yaşasın Müstəqil Azərbaycan!”.***



Bu sözləri bu günlərdə Ordubad rayonunun Üstüpü kənd tam orta məktəbinin açılış mərasimində məktəbəqədər hazırlıq qrupunun şagirdi, 5 yaşlı Bəkirin dilindən eşitdik. Bəkirin sözləri ictimaiyyət, xüsusilə sosial şəbəkə istifadəçiləri tərəfindən böyük maraqla qarşılandı. Balaca Bəkirin görüntüləri qısa zamanda minlərlə insan tərəfindən izləndi, xoş rəylər yazıldı. Əslində, Bəkirin sevinci təkcə Üstüpü kəndinin deyil, Ordubadın, Naxçıvanın, nəticə etibarilə, ölkəmizin sevinci idi. Hər bir xalqın inkişafında vacib və başlıca şərt olan təhsilin inkişafı yolunda atılmış daha bir addımın sevinci idi.

Deyirlər ki, uşaq gülürsə, demək, başəriyyət gülür. Uşaqların gülüşü, rahatlığı cəmiyyətin xoşbəxtliyidir. Bəkirin xoşbəxtliyi kimi. Onunla bərabər sevinən sinif yoldaşlarının xoşbəxtliyi kimi. Hələ Bəkirin 5 yaşı var. O, xalqımıza, dövlətimizə layiqli övlad kimi yetişəcəyinə söz verdi. Vaxt gələcək, böyüyüb boyabaşa çatacaq, anlayacaq və qürur duyacaq ki, qurucu şəxsiyyət və rəhbər cənab Vasif Talıbov məktəbinin yetirməsidir. 21 noyabr 2017-ci il tarixdəki görüşün təkcə muxtar respublika rəhbəri ilə yox, eyni zamanda uşaqların və gənclərin, bütün naxçıvanlıların hamısı ilə görüş olduğunu biləcək. Həmin gün yaşadığı sevinci ikiqat yaşayacaq...

Bəkirin sevinci bizi heç də uzaq olmayan yaxın keçmişə apardı. Ötən əsrin 90-cı illərinin əvvəllərində Ordubad rayonunda təhsil sahəsində zəiflik, intizamsızlıq, daha dəqiq desək, özbaşınalıq özünü daha qabarıq göstərirdi. Rayon kəndlərində baş verən bu hallar haqlı olaraq sakinlərin etirazına səbəb olurdu. Üstüpü kəndi başda olmaqla, Nüsnüs, Əylis, Vənənd, Sabirkənd, Dəstə və başqa kəndlərdə narazılıq getdikcə artırdı. Bu, yaşlılara daha çox təsir edirdi. Çünki onlar Ordubadda təhsilin həmişə yüksək səviyyədə olduğunu görmüşdülər. Yaranmış vəziyyət isə təhsilin sonunun çatdığını göstərirdi. Amma bu insanların səsinə səs verən yox idi...

... 1994-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi vəziyyəti haqqındakı materiallarda təhsilin səviyyəsinin aşağı, məktəblərin yararsız halda olması, dərsliklərin çatışmaması, xüsusilə qeyd edilir. Bunlar dərd yarı. Ən faciəvi vəziyyətlərdən biri isə uşaqların pis vərdişlərə yiyələnməsi, onlar tərəfindən cinayət hadisələrinin törədilməsi və başqa bu cür hallar gələcəyimizin böyük təhlükədə olduğunu göstərirdi. Müxtəlif dairələrdə məktəblilərin bəzi xidmət sahələrində işə cəlb olunması gündəmə gətirilsə də, bu problemlərin aradan qaldırılması üçün heç bir əməli addım atılmadı. Vəziyyət isə daha da ağırlaşırdı. Belə bir şəraitdə təhsil almaq heç də asan deyildi. Elə olurdu ki, uşaqlar həftələrlə məktəbə getmirdilər. Bəli, o zamanlar təhsilə göstərilən diqqət və qayğıdan danışmaq belə, olmazdı. Məhz ona görə o illərdə “Gələcəyimiz təhlükə altındadır”, “Təhsil qayğı istəyir”, “Ordubadda yeni “kəşf”, “Şagird dəftər istəyir” və



başqa yazılar mətbuat səhifələrində yer alırdı. Həmin yazılardan aydın olur ki, o illərin məktəblisi adi bir şagird dəftərinə həsrət qalmışdı. Amma bu gün Bəkir 24-25 il bundan əvvəlki həmyaşıdlarının çəkdikləri əziyyəti çəkməyəcək. Çünki 340 yerlik məktəb binası o və onun kimi məktəblilərin ixtiyarına verilib. Ali təhsil müəssisəsinin binasından seçilməyən yeni məktəb binasında ikisi elektron lövhəli olmaqla, 16 sinif otağı, fizika və kimya-biologiya laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter otağı, müəllimlər otağı, psixoloq otağı, kitabxana və idman zalı vardır. Məktəbin kitabxanası 1852-si dərslik və 3050-si bədii ədəbiyyat olmaqla, 4900-dən çox kitab fonduna malikdir. Kompüter otağında isə 19 kompüter quraşdırılıb və internetə qoşulub. Bir sözlə, məktəbdə tədrisin səviyyəsini yüksəltmək üçün bütün imkanlar yaradılıb.

Bəli, üstüpülü şagirdlər hərtərəfli şəraitlə təmin olunmuş müasir məktəbdə oxuyaraq sabahın naziri, deputatı, alimi, dünya çempionu, kompüter mühəndisi, insanlara şəfa verəcək həkim, sözünü deməyi bacaran jurnalist, bir sözlə, xalqına, millətinə layiq vətəndaş olacaqlar. Müstəqil Azərbaycanın döyünən ürəyi, sosial-iqtisadi inkişafının ən yüksək mərhələsini yaşayan Naxçıvanın yetişdirdiyi geniş dünyagörüşlü, savadlı və vətənpərvər gənclər kimi böyüyəcəklər. Torpağına, dövlətinə bağlı, dövlətçiliyinə sadiq, ölkəsinin gələcəyini düşünən vətəndaşlar kimi sabahımıza cavabdehlik daşıyacaqlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***“Vətənpərvər olan gənc özünü Azərbaycanın gələcək qurucusu kimi hiss edə bilər. İndidən, orta məktəbin ilk günündən uşaqlara aşılamaq lazımdır ki, bu Vətən, bu ölkə sənindir, onun qurucusu da, qoruyucusu da sənsən!”***

Elə bu gün də qürur duyuruq ki, Vətənin qurucusu və qoruyucusu sıralarında naxçıvanlı gənclər öndə gedirlər və həmişə də gedəcəklər. Çünki onların doğulub boya-başa çatdıqları torpaqda dövlətçiliyimizin bünövrəsi qoyulub. Bu bünövrə möhkəm təməllər üzərindədir. Çox keçməyəcək ki, bu ön sırada gələcəkdə Bəkir və onun kimi minlərlə gənci də görəcəyik. Çünki onlar elə bir torpaqda böyüyərək təhsil alırlar ki, bu torpaq Azərbaycanda dövlətçiliyin yarandığı və pərvəriş tapdığı bir diyara məxsusdur.

**Sara ƏZİMOVA**
*jurnalist*

## İfaçılıq müsabiqəsinin seçim turu başlayıb

***Noyabrın 22-də Culfa Rayon Mədəniyyət Evində rəqs kollektivlərinin ifaçılıq müsabiqəsinin seçim turuna start verilib.***

Bu turda 8 rəqs kollektivi iştirak edib. Seçim turunda “Çiçəklər”, “Gülüstan”, “Buta” rəqs kollektivləri, “İncilər, qönçələr” yallı qrupu, “Əlincə”, “İgidlər” yallı kollektivi (Culfa rayonu), “Vənənd inciləri”, “Unus qönçələri” rəqs qrupları (Ordubad rayonu) öz istedadlarını göstəriblər.

Kollektivlər “Nəlbəki”, “Dəsmal”, “Ağ çiçək”, “Yaylıq”, “Uzundərə” rəqslərini, “Köçəri”, “Tənzərə” yallılarını ifa ediblər. Seçim turunda Gülüstan kənd Mədəniyyət Evinin “Çiçəklər” rəqs qrupu “Nəlbəki”, bu mədəniyyət evinin “Gülüstan” rəqs kollektivi “Dəsmal” rəqsləri ilə fərqləniblər.

Bu gün isə Şərur Rayon Mədəniyyət Sarayında Şərur, Kəngərli və Sədərək rayonlarının rəqs kollektivləri, Babək Rayon Mədəniyyət Evində isə Naxçıvan şəhəri, Babək və Şahbuz rayonlarından olan rəqs və yallı kollektivləri seçim turunda iştirak edəcəklər.

Qeyd edək ki, müsabiqənin keçirilməsi üçün təşkilat komitəsi və münsiflər heyəti yaradılmış, nazirliyin əmri ilə əsasnamə təsdiq edilmişdir. Müsabiqədə muxtar respublikada fəaliyyət göstərən qeyri-peşəkar rəqs dərnəkləri, qrupları və kollektivləri iştirak edirlər. İştirakçılara yaş həddi qoyulmayıb. Seçim turunda fərqlənən kollektivlər münsiflər heyətinin qərarı ilə əsas turda iştirak etmək hüququ qazanacaqlar.

Müsabiqənin əsas turunun bu ilin dekabr ayının birinci ongünlüyündə Naxçıvan şəhərində keçirilməsi nəzərdə tutulub.

**Əli RZAYEV**

# Azərbaycan Uşaqlarının IV Ümumrespublika Forumu keçirilib

***Uşaq hüquqlarının tam təmin edilməsi, onların problemlərinin ardıcıl həlli ölkəmizdə bu sahədə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Respublikamızın sürətli iqtisadi inkişafı sosial problemlərin həlli üçün etibarlı zəmin yaradır. Bu baxımdan son illərdə ölkəmizdə uşaqların sağlamlığının möhkəmləndirilməsi, onların müasir tələblər səviyyəsində təhsil almaları üçün lazımi şəraitin təmin edilməsinə yönəlmiş mühüm addımlar atılmaqdadır.***

Uşaqların öz hüquqları ilə bağlı qərarların qəbul edilməsində iştirakını təmin etmək, onlara problemləri ilə bağlı təşəbbüslərlə çıxış etmək və təkliflər vermək imkanı yaratmaq, həmçinin ictimaiyyətin diqqətini uşaq hüquqlarının qorunmasına yönəltmək məqsədilə 2009-cu ildə Azərbaycan Uşaqlarının I, 2011-ci ildə II, 2014-cü ildə isə III Ümumrespublika forumlarının keçirilməsi uşaqların hərtərəfli inkişafı, milli və mənəvi dəyərləri mənimsəmələri baxımından diqqətəlayiqdir. Forumlar ölkə üzrə bütün şəhər və rayonları təmsil edən uşaqların iştirakı ilə keçirilib. Ötən müddət ərzində bu tədbirlərdə iştirak edən uşaqlar tərəfindən səsləndirilən bütün təkliflər müxtəlif proqramlarda öz əksini tapıb. Forum həm də əsas verir ki, hər bir uşaq onu düşündürən, narahat edən məsələləri dilə gətirsin, problemlərin birgə həlli yollarını araşdırsın. Məhz bu forumlar istedadlı uşaqların üzə çıxarılmasında mühüm rola malikdir. Həmçinin bu forumlar uşaqların ictimai fəallıqlarının artırılmasında, iştirak hüququnun təmin edilməsində və liderlik keyfiyyətlərinin formalaşmasında mühüm əhəmiyyət daşıyır.

Bu il noyabr ayının 20-də Bakı şəhərində Azərbaycan Uşaqlarının IV Ümumrespublika Forumu keçirilib. Foruma Azərbaycanın bütün şəhər və rayonlarından fəallığı və intellektual səviyyəsi ilə seçilən, fikirlərini sərbəst şəkildə ifadə edə bilən 380 nəfərə yaxın uşaq, həmçinin xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum olmuş, qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlar nümayəndə qismində seçiliblər. Forum çərçivəsində uşaqların əl işlərindən ibarət sərgi və uşaq hüquqlarına dair filmlər nümayiş etdirilib.

Qeyd edək ki, bu foruma muxtar respublikamızı şəhər və rayon məktəblərindən, Heydər Əliyev adına Hərbi Liseyin, Heydər Əliyev adına tam orta məktəbin və Qızlar Liseyinin hər birindən 1 uşaq olmaqla, ümumilikdə, 10 uşaq təmsil edib.

Tədbirdən əvvəl Azərbaycan Uşaqlarının IV Ümumrespublika Forumunun iştirakçıları Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin, Şəhidlər xiyabanında ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad ediblər.

Dövlət Himninin oxunması ilə başlanan forumda ölkə Prezidenti cənab İlham Əliyevin forum iştirakçılarına təbrik məktubu oxunub. Forum çərçivəsində dövlət müəssisələrinin, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri çıxışlar edib, dövlət və hökumət nümayəndələri uşaqların suallarını cavablandırıblar. Forum zamanı uşaqlar üçün aktual olan mövzular – “Uşaq hüquqları: inkişaf üçün birləşək”, “Təhsildə yeni standartlar: çağırışlar və bərabər imkanlar”, “Uşaqların internet təhlükəsizliyi”, “Sağlamlığın qorunması, sağlam həyat tərzi. Ətraf mühitin mühafizəsi”, “Asudə vaxtın səmərəli təşkili və dəyərləndirilməsi”, “Uşaqların şəxsiyyət kimi formalaşmasında ailə və cəmiyyətin rolu və məsuliyyəti”, “Vətəni sevək, ona layiq olaq. Qarabağ həqiqətlərini dünyaya çatdıraq” mövzuları üzrə aidiyyəti dövlət orqanlarını təmsil edən ekspertlərin iştirakı ilə qruplarda müzakirələr aparılıb. Muxtar respublikanı təmsil edən uşaqlar bu müzakirələrdə fəal iştirak edib, təkliflər səsləndiriblər.

Forumda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təqdim olunacaq ölkəmizin bütün bölgələrindən gətirilmiş torpaqla hazırlanmış xəritəmiz göstərilib.

Sonda forum iştirakçıları adından dövlət başçısına müraciət ünvanlanıb. Tədbirdə Azərbaycan uşaqları adından dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara bəyanat, forumun bəyannaməsi qəbul edilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Noyabrın 23-də Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində “Diaskin test preparatı və onun əhəmiyyəti” mövzusunda seminar keçirilib.*

# Uşaq və yeniyetmələr arasında kütləvi diaskin sınağı aparılacaq



Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası tərəfindən təşkil olunan tədbiri xəstəxananın baş həkimi Rəhim Rəhimov açaraq bildirib ki, vərəm gecikmiş mərhələdə qarşısı alına bilməyən xəstəlik olduğundan dünyada hər dəqiqədə iki insanın həyatına son qoyur və əhalinin əmək qabiliyyətli hissəsini sıradan çıxarır. Odur ki, xəstəliyin erkən diaqnozunun qoyulması və müalicəsinin vaxtında başlanması mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən hazırlanan tədbirlər planına əsasən noyabr ayının 27-dən dekabr ayının 7-dək uşaq və yeniyetmələr arasında başlanğıc və məhdud formalı vərəmin erkən aşkar edilib vaxtında müayinə və müalicəyə cəlb olunması üçün şagirdlər arasında kütləvi diaskin sınağı aparılacaqdır.

Vurğulanıb ki, hazırda bu mühüm kampaniya üçün təşkilati işlər görülür, məktəblərdə maarifləndirmə işi aparılır. Diaskin testin yüksək səviyyədə həyata keçirilməsinin mahiyyətinin və əhəmiyyətinin öyrənilməsi məqsədilə artıq rayon mərkəzi xəstəxanaları, şəhər, rayon gigiyena və epidemiologiya mərkəzləri tərəfindən xidmət ərazilərində test sınaqlarına cəlb ediləN uşaqların siyahılarının tərtib olunmasına başlanılıb. Ərazi prinsipi üzrə bir həkim və iki tibb bacısından ibarət xüsusi briqadalar yaradılıb.

Xəstəxananın ftiziatrı Dilşurə İsmayılova “Diaskin testin kimyəvi tərkibi, mantu sınağından fərqi”, pediatr Səkinə Tarverdiyeva “Diaskin test – nəticələri, risk qrupları və fəsadları”, Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin ftiziatrları Məmmədəli Ələkbərov “Uşaqlarda erkən vərəm intoksikasiyasının aşkarlanması”, Zeynəb Bağırova “QİÇS və vərəm” mövzularında məruzə ediblər.

Bildirilib ki, diaskin test həssas və yüksək spesifik preparat kimi, vərəmə yoluxmuş və vərəmə yoluxma riski yüksək olan insanların aşkar edilməsində mühüm rol oynayır. Belə ki, mantu sınağında dəqiqlik 70 faizdirsə, diaskin testdə bu göstərici 98 faizdir. Bu testin bir üstün cəhəti də mantu sınağında rast gəlinən allergik reaksiyaların və yalançı müsbət nəticələrin olmamasıdır. Bir sözlə, diaskin test vərəmə yoluxmuş xəstələrin erkən aşkar olunması və yoluxmuş insanların müalicəsinin effektivliyini göstərən dəqiq sınaq üsuludur.

Muxtar respublikanın tibb müəssisələrində çalışan həkim-pediatr və vaksinatorların, şəhər və rayon Gigiyena Epidemiologiya mərkəzlərinin nümayəndələrinin iştirak etdiyi tədbirdə müzakirələr aparılıb, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Milli mətbəximiz*

# Dadlı qış azuqəsi: *qurut*

***Naxçıvanımızın zəngin mətbəx mədəniyyəti özünəməxsus yemək növləri, ləziz təamları ilə tanınır. Bu təamlar içərisində isə qış azuqəsi kimi hazırlanan yemək növləri özünəməxsusluğu ilə seçilir.***



Haqqında bəhs edəcəyimiz qış yeməyi nənələrimizdən bizə yadigar qalan, qədim mətbəx mədəniyyətimizin ləziz nümunələrindən olan qurut aşı haqqında olacaq. Əsasən, dağ kəndlərində sevilən bu təam “kələgöş” və “cələcoş” adları ilə də tanınır.

Bu haqda bizə məlumat verən Ordubad rayonunun Tivi kənd sakini Səbinə Haqverdiyeva deyir ki, kənddə yaşayan insanlar süd və süd məhsullarından hazırlanan ləziz təamlara daha çox üstünlük verirlər. Bulama, qatıq, pendir, qaymaq, ayran, şor, nehrə yağı, motal pendiri, motal şoru və onların əsasında hazırlanmış dovğa, doğramac, ayran aşı, qurut aşı və adını sadalaya biləcəyimiz bir çox ləziz təamlar bu gün də sevilərək yaşadılan mətbəx nümunələrimiz sırasındadır.

Həmsöhbətim bildirir ki, kənddə ağartı məhsulları əldə etmək üçün, əsasən, inək və camış südü işlədilir. Keçi və qoyun südündən isə daha çox pendir tutulur. Camış südü yağlı olduğundan onun qatığı qatı, qaymağı isə yağlı və dadlı olur. O deyir ki, kənd camaatı yalnız özləri hazırladıqları yağdan istifadə edir. Yağı isə qatığı nehrədə çalxalamaqla alırlar. Hazırda kənddə, əsasən, ağac nehrələrə üstünlük verilir. Əvvəllər isə gil nehrələrdən də istifadə olunurmuş. Nehrədə çalxanan qatıq ayran halına gəldikdən sonra yağ ayranın üzərinə çıxır. Həmin yağdan isə səhər yeməyində və ya xörəklərin hazırlanmasında istifadə olunur. Nehrədə alınan ayrandan ayran süzməsi, ayran kəsmiyi və şor hazırlanır. Kəsmiyi hazırlamaq üçün ona bir qədər duz əlavə olunaraq ocaq üzərində qarışdırılır və beləliklə, kəsmik alınır. Duzlanmış kəsmik isə şor adlanır. Ayrandan həm də süzmə hazırlamaq olar ki, həmin süzmə qatıqdan alınan süzmədən daha yağsız olur. Süzmə hazırlamaq üçünsə ayran cecimdən tikilən torbalara doldurulur və üzərinə ağır daş qoyulur ki, suyu tamamilə süzülsün. Bir neçə gün bu qaydada saxlanılan ayran süzmə halını alır. Ayrandan hazırlanan süzmə, qatıqdan hazırlanan süzmədən daha yağsız olur. Əsasən, yay aylarında həmin süzmə duzlanıb yoğurulur, balaca kündə şəklində ağacın nazik budaqlarından hörülmüş “çəpərə”nin üzərinə düzülərək kölgə yerdə qurudulur. Gün altında qurudulan qurutun rəngi sarı olduğundan onu kölgədə qurutmaq daha məqsədəuyğundur. Bu şəkildə hazırlanan qurutu uzun müddət saxlamaq olur. Düzgün hazırlanmış, vitaminlərlə zəngin olan bu məhsulu, keyfiyyətini itirmədən ən az 7-8 il saxlamaq mümkündür. Bu səbəbdən də qədim zamanlarda qurut səyyahların, döyüşçülərin, ziyarətçilərin özləri ilə götürdükləri əsas qida məhsulu olub.

Səbinə Haqverdiyeva bizə qurut aşının hazırlanması haqqında da danışdı: “Bərk halda olan qurutu əzmək üçün ılıq sudan istifadə edilir. İsti su əzilməni sürətləndirsə də, məhsulun çürüməsinə səbəb olur. Qurutu doğrayaraq əzmək düzgün deyil. Ona görə ki, bu zaman tam əzilmir və içərisində bərk hissəciklər qalır. Qurutu əzmək fiziki güc tələb edir. Qurut əzildikdən sonra çürüməməsi üçün zəif odda qaynara düşənə qədər oxlov ilə bulayırlar”.

Müsahibim deyir ki, qurut aşını mis qazanda buladıqda xüsusi ətrə və dada malik olur. Bu səbəbdən kənddə çoxları nəinki qurut aşını, bir çox yemək növlərini də mis qazanlarda, saxsı qablarda hazırlayırlar. Ordubadın bir sıra kəndlərində qurut aşına həvəngdəstədə döyülmüş çəviz ləpəsi və maralotu da qatırlar. Maralotu xüsusi tamı olan zərif ətirli bitkidir. Dağ kəndlərində daha çox rast gəlinən bu bitkini kənd camaatı yalnız qurut aşı üçün istifadə edir. Ona görə bu bitkiyə el arasında qurutotu da deyirlər. Qurutun üzünü hazırlamaq üçün yağda qızardılmış soğanın üzərinə zövqə görə maralotu əlavə edirlər. Süfrəyə verərkən həmin üz hazırlanan qurut aşının üzərinə əlavə olunur. Qurut aşının qovurma ilə bişirilmişi daha dadlı olur. Bəzən zövqə görə ayranın içərisinə suda qaynadılmış düyü, noxud da əlavə olunur. Bəzi bölgələrdə qurut xəngəl, sulu xəngəl üçün xörək əlavəsi kimi də istifadə edilir.

*Qədim tarixə və zəngin yemək növlərinə malik olan Naxçıvan mətbəxi milli mədəniyyətimizin mühüm tərkib hissəsidir. Ona görə də kulinariya mədəniyyətinin sistemli şəkildə öyrənilməsi və inkişaf etdirilməsi, təbliğ olunması milli mətbəx nümunələrimizin gələcək nəsillərə ötürülməsi baxımından əhəmiyyətlidir.*

✍ **Gülcamal TAHİROVA**

## Qaz cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarına ciddi riayət edilməlidir

Havaların soyuq keçməsi ilə əlaqədar olaraq muxtar respublika ərazisində əhalinin mavi yanacağa olan tələbatı artıb. Qış mövsümündə yaşayış sahələrində vətəndaşlar tərəfindən qaz cihazlarından və sobalarından geniş istifadə olunur. Həmin cihazlardan istifadə zamanı təhlükəsizlik qaydalarının tələblərinə riayət edilməməsi səbəbindən bir çox hallarda insan itkisinə səbəb olan partlayış, yanğın və dəm qazından zəhərlənmə kimi bədbəxt hadisələr baş verir.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi bütün bunları nəzərə alaraq qaz cihazları və qaz təsərrüfatı ilə bağlı aşağıdakı təhlükəsizlik qaydalarına əməl olunmasını tövsiyə edir.

İstənilən mağazadan və ticarət obyektindən qaz cihazlarını alan zaman diqqətli olmaq lazımdır. Hər bir vətəndaşın aldığı qaz cihazı sənaye üsulu ilə istehsal olunmalı (yəni kustar yolla hazırlanmamalı) və Azərbaycan dilində istifadə təlimatı olmalıdır. Cihazlarda təhlükəsizlik sistemi, qaz təzyiqi nizamlayıcısı, müəyyən səbəblərdən qaz kəsildikdə və təkrar verildikdə sistemi bağlayan qurğunun olması vacibdir.

Qaz cihazlarının quraşdırılması, yerinin dəyişdirilməsi və qaz xətlərinin çəkilişi yalnız bu sahə üzrə mütəxəssislər tərəfindən həyata keçirilməlidir. Mənzilə daxil olduqda qaz iyi hiss edilərsə, işığı yandırmaq, söndürmək, elektrik cihazlarını işə salmaq, siqaret çəkmək və açıq alovdan istifadə etmək qəti qadağandır. Otağın qapı və pəncərələri açılmalı və hava axını yaradılmalıdır. Evdə qazın sızmasını yoxlamaq üçün açıq alovdan istifadə etmək olmaz. Bundan ötrü yalnız sabun məhlulundan istifadə etmək lazımdır. Əgər qaz sızması aşkar olunarsa, dərhal qazın verilişini dayandırmaq və Qaz İstismar İdarəsinin (104) qəza xidmətinə xəbər vermək lazımdır.

Yaşayış evləri və mənzillərində qaz cihazlarını işlək vəziyyətdə qoyub yatmaq, sobaların həddindən artıq qızmasına yol vermək, onların istifadəsini azyaşlı uşaqlara etibar edib evdən çıxmaq olmaz. Mənzili tərk edərkən qaz cihazlarını söndürməli, qaz borularının ventilləri bağlanmalıdır. Mətbəxdə qaz pilətəsi və su qızdırıcı quraşdırılarkən otağın həcmi nəzərə alınmalıdır. Belə ki, qaz cihazları quraşdırılan mətbəx otağının hündürlüyü 2,2 metrdən az olmamalı, pəncərə açıq nəfəslik və havadəyişmə kanalı ilə təmin edilməlidir.

Qaz cihazlarının istismarı zamanı əhalinin üzləşdiyi xoşagəlməz hadisələrdən biri də dəm qazı ilə zəhərlənmədir. Bunun üçün yalnız düz axımlı metal borulardan istifadə olunmalı, soba ilə divar arasında 20-30 santimetr məsafə olmaqla, tüstü boruları 1,5 metr şaquli istiqamətdə qalxdıqdan sonra binaların dam örtüyündən 70 santimetr hündürlükdə quraşdırılmalıdır. Hamamlarda qazla işləyən suqızdırıcı cihaz quraşdırılmamalı, hava daxil olması üçün nəfəslik açıq saxlanmalı, ventilyasiya kanalı daim işlək vəziyyətdə olmalıdır. Dəm qazının yaranmaması üçün otaqlar tez-tez havalandırılmalı, tüstü boruları küləyin istiqaməti nəzərə alınmaqla quraşdırılmalı və bu borularının çıxışı tutulmamalıdır. Tüstü boruları və bacaları hər 2 aydan bir təmizlənməli, onların sazlığı yoxlanmalıdır.

***Qaz cihazları ilə bağlı hər hansı təhlükə ilə üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin “112” qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin “101” xidmətinə məlumat verilməlidir. Unutmayın ki, təhlükəsizliyiniz öz əlinizdədir.***

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

*İdman*

## Futbol üzrə muxtar respublika çempionatında ilk dövrə başa çatıb



***Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının muxtar respublika Gənclər və İdman, Təhsil nazirlikləri ilə razılaşdırılmış təqvim planına uyğun olaraq keçirilən futbol üzrə XVI muxtar respublika çempionatında ilk dövrəyə yekun vurulub.***

Çempionatın ilk dövrəsini “Araz-Naxçıvan” maksimum xalla başa vurub. 7-ci turda “Sədərək” komandasının qonağı olan “qırmızı-ağlar” meydanı 4:1 hesablı qələbə ilə tərk ediblər. Dövrənin son matçında isə Naxçıvan təmsilçisi Şahbuzun “Batabat” komandasını sınağa çəkib və rəqib qapısından 6 cavabsız top keçirib. Turnir cədvəlində onların ən yaxın izləyicisi isə Naxçıvan Dövlət Universitetinin komandasıdır. Tələbələr son iki turu qələbə ilə başa vurmaqla buna müvəffəq olublar. Öncə Kəngərli təmsilçisini 7 dəfə mərkəzə dəvət edən NDU (2:7), son turda “Dübəndi” komandası qarşısında 3 xalı çətinliklə əldə edib – 2:1.

Son iki görüşdə xal itkisi “Babək” komandasını dördüncü pilləyə salıb. Bundan isə Culfanın “Əlincə” komandası maksimum istifadə edib. Belə ki, son iki turda əldə edilən 4 xal culfalıları ilk üç pillədə qərarlaşdırıb.

Şərurun “Arpaçay”, Şahbuzun isə “Batabat” komandaları isə cari mövsümdə autsayder timsalında görünürlər. Düzdür, hər iki komanda son turlarda xal qazansalar da, bu, onlara kifayət etməyib.

Cari mövsümün bombardirlərinə gəlincə, “Araz-Naxçıvan”ın hücumçusu Turqay İbrahimov və Naxçıvan Dövlət Universitetinin forvardı Samir Kərimovun aktivində 11 qol var.

İlk dövrənin ən intizamsız komandası isə “Babək”dir. Belə ki, babəklilər 8 görüş ərzində 16 sarı, 6 qırmızı vərəqə ilə cəzalandırılıblar. Siyahıda digər yerlərdə “Culfa” (18 sarı, 1 qırmızı), “Araz-Naxçıvan” (13 sarı, 2 qırmızı), NDU (12 sarı, 2 qırmızı) və “Dübəndi” (14 sarı) qərarlaşıblar. Ən az vərəqə alan komanda isə “Arpaçay”dır – 4 sarı vərəqə.

*Naxçıvan Muxtar Respublika Çempionatı*

***7-ci tur***

*“Əlincə” - “Arpaçay” 3:0*
*“Sədərək”-“Araz-Naxçıvan” 1:4*
*NDU - “Dübəndi” 2:1*
*“Babək” - “Kəngərli” 0:0*

***8-ci tur***

*“Kəngərli” - NDU 2:7*
*“Arpaçay” - “Sədərək” 2:2*
*“Dübəndi” - “Əlincə” 1:1*
*“Araz-Naxçıvan” - “Batabat” 6:0*

| S | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | Araz-Naxçıvan | 8 | 8 | 0 | 0 | 41-4 | 24 |
| 2. | NDU | 8 | 5 | 1 | 2 | 26-16 | 16 |
| 3. | Əlincə | 8 | 4 | 3 | 1 | 17-12 | 15 |
| 4. | Babək | 8 | 3 | 2 | 3 | 12-13 | 11 |
| 5. | Dübəndi | 8 | 3 | 1 | 4 | 13-17 | 10 |
| 6. | Sədərək | 8 | 2 | 1 | 5 | 15-26 | 7 |
| 7. | Kəngərli | 8 | 2 | 1 | 5 | 16-26 | 7 |
| 8. | Arpaçay | 8 | 2 | 1 | 5 | 14-25 | 7 |
| 9. | Batabat | 8 | 2 | 0 | 6 | 16-30 | 6 |

***Qeyd: “S” – sıra, “O” – oyun, “Q” – qələbə, “H” – heç-heçə, “M” – məğlubiyyət, “T/F” – top fərqi, “X” – xal.***

## İdmançılarımız Daxili İşlər Nazirliyinin ölkə birinciliyində uğurla çıxış ediblər

***Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xidməti idman tədbirlərinin təqvim planına əsasən cüdo üzrə daxili işlər orqanlarının birinciliyi keçirilib.***

Birinciliyin açılış mərasimində çıxış edən DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftaxetdinova Azərbaycanda idmana və idmançılara göstərilən diqqət və qayğıdan söhbət açaraq bildirib ki, bu gün idmançılarımız beynəlxalq yarışlarda uğurlu nəticələr qazanır və vətənimizi layiqincə təmsil edirlər. Azərbaycan təmsilçilərinin ən mötəbər yarışlarda əldə etdiyi qələbələr, keçirilən idman tədbirlərinin miqyası respublikamızın dünyanın ən güclü idman ölkələrindən birinə çevrildiyinin əyani sübutudur.

Bildirilib ki, Azərbaycanın sürətli, dinamik inkişafı idman sahəsində də özünü göstərir. Bütün bu nailiyyətlərin əsasında ulu öndərimiz tərəfindən müəyyənləşdirilən, dövlət başçımızın uğurla davam və inkişaf etdirdiyi düzgün siyasət durur. Bizim ölkəmiz məhz bu siyasətin sayəsində həm də mühüm beynəlxalq idman yarışlarının məkanına çevrilib.

Daha sonra yarışlara start verilib. DİN İdman Cəmiyyətində keçirilən bu yarışda ərazi polis orqanları, nizami hissə və tədris müəssisələrini təmsil edən, ümumilikdə, 11 komanda heyətində 90 idmançı tatami üzərinə çıxıb.

Gərgin keçən yarışlarda iştirakçılar arasında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin də 7 idmançısı mübarizə aparıb. Ən yaxşı nəticəni Rəşad Həsənov və Sadiq Qasımov göstəriblər. Onlar müvafiq olaraq 66 və 100+ kiloqram çəki dərəcələrində bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüblər. 60 kiloqram çəki dərəcəsində Elşən Qasımov, 90 kiloqram çəki dərəcəsində Elvin Əliquliyev və 100 kiloqram çəki dərəcəsində Cavanşir Yaqubov yalnız final görüşlərində məğlub olublar. Orxan Babayev (73 kiloqram) və Qartal Əliyev (66 kiloqram) isə birinciliyin bürünc medalını qazanıblar.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin rəisi, polis polkovniki Cavanşir Salayev ən yaxşı komanda hazırladığına görə xüsusi diplomla təltif olunub.

Sonda qalib idmançılarımıza diplom, medal və hədiyyələr təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

**ŞƏRQ** *qapısı*
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Hüseynov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1000. Sifariş № 956